UOT 745/746

https://doi.org/10.59849/2311-8482.2024.1.134

İMRAN KƏRİMOV*

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN KERAMİKA RƏSSAMLARININ YARADICILIĞINDA FƏLSƏFİ MÖVZUNUN ƏKSİ

*Azərbaycanda ən qədim sənətlərdən sayılan bədii keramika öz başlanğıcını Neolit dövründən götürür. Belə bir qədim və zəngin inkişaf tarixi olan bu sənət növü çağdaş dövrümüzdə də öz əhəmiyyətini itirməmişdir. İnkişafının ilkin dövrlərində insanların ehtiyaclarını ödəməyə yönəlmiş, yəni sırf utilitar funksiyası olan keramika sənəti, sonrak dövlərdə estetik funksiya da qazanaraq ilkin insanların gözəllik duyğularının, bəzək, rəngkarlıq, naxış təsəvvürlərinin də formalaşmasına yardımçı olmuşdur. Məqalədə Azərbaycan müstəqillik əldə edəndən sonrakı dönəmdə keramika sənətinin inkişaf təmayülləri araşdırılır. Tədqiqat obyekti kimi isə Azərbaycanın həmin dövrdə fəaliyyət göstərən keramika rəssamlarının yaradıcılığı götürülmüşdür.*

***Açar sözlər:*** *Keramika, müasir dövr, fəlsəfi, texnologiya, bədii, plastika, dekor.*

## Giriş

Azərbaycan sənətkarlığının ən qədim sahələrindən biri olan bədii keramika özünün inkişaf mərhələsini çox qədim zamanlardan başladaraq günümüzədək öz əhəmiyyətini saxlamışdır. Meydana çıxmasının Neolit dövrünə təsadüf edilməsi iddia edilən keramikanın ilk dövrlər qadınların məşğul olduğu dulusçuluqda tətbiq edilən bir sıra texniki nailiyyətlər və bədii təkamül nəticəsində müstəqil sənət sahəsi kimi qəbul edilməyə başlanmışdır. Yerli sakinlərdə estetik təsəvvürlərin formalaşması keramik məmulatda da tədricən dekorativ xüsusiyyətlərinin artmasına gətirib çıxarmışdır. Sadə həndəsi və nəbati motivlər əvvəlcə qoruyucu və ovsun mahiyyətli olmuş, tədricən, onların dekorativ xüsusiyyətləri kəşf olunduqca, bəzək sistemlərinə çevrilmişlər. Ölkəmiz müstəqilik əldə etdikdən sonra müasir dövrümüzdə keramikadan istifadə edərkən daha aktual mövzulara toxunaraq dövrün iqtisadi və siyasi şəraitinin tələbindən irəli gələn simvolik və rəmzi mahiyyət daşıyan fiqurların yaradılması bu sahənin daha maraqlı tərəflərini göstərir.

## Əsas təhlil

Müstəqilik dövründə keramika ixtisasının bütün sirlərini mənimsəyən gənc rəssamlar yetişdilər ki, onları yaratdığı əsərlər məna və məzmun cəhətdən bədiilik təşkil edir. Bu gənc keramika üzrə rəssamlardan Mərdiyev Şəhriyar, Seyidova Gülnar, Əliyeva Xatun, Kərimova Şəhla, Qasımlı Möhsün, Nəbiyev Əzizağa, Əsədli Şəms, Qədimov Bəhlul, Ramazanova Əsmər, Allahverdiyeva Xəyalə, Rəhim Çopurov, Qurbanova Şanel və b. sənətkarların adlarını qeyd etmək olar ki, onların da yaradıcılıqlarında mənzərə janrı aparıcı sahə kimi inkişaf etmişdir.

Allahverdiyeva Xəyalənin "Təkamül" adlı keramik əsərində həyatın yaranış təkamülünün dörd cəhətini ardıcıllıqla əks edilmişdi ki, bu zaman-zaman ünsür kimi qiymətli olmuşdur. "Təkamül" adlı yaradıcılıq işində gənc rəssam suyu, torpağı, odu, havanı əks etdirmişdir. Müəllif kompozisiya quruluşunu elə seçmişdir ki, formanın hər bir üzündə iki elementin formasını əks etdirmişdir. Hər tərəfində iki elementin təsvirinin verilməsi və bunların bir-biri ilə əlaqəsinin göstərilməsi, hava ilə odun əlaqəsinin, su ilə torpağı əlaqəsinin və sonda bunların dördünün də bir-biri ilə əlaqəsinin olmasının göstərilməsi əks olunmuşdur. Bu dörd ünsürün formalarının üzə çıxardılmasını və qabarıqlaşmasını isə gənc rəssam rəngli şirələr vasitəsi ilə yerinə yetirmişdir. Belə hesab edirik ki, bu tərz və ya təkamül anlamı bütün dövrlərdə aktual olacaq və bu tərzdə yaradılmış yaradıcılıq işləri daim baxılacaq və sənət əsərləri sırasına düşəcəklər.

Keramikanın özündə məna-məzmun daşıyıcılığı funksiyasını hifz edən dekorun - naxış örtüyünün zənginliyi danılmaz olan ornament və təsvir elementlərinin çoxu rəmzi mahiyyət daşıyır. Təbii ki, bu təkcə tədqiqata cəlb edilmiş dövrün keramika-sında müşahidə olunmur. Belə ki, Azərbaycan

təsviri və tətbiqi sənət növlərində ta qədimlərdən başlayaraq onların yaradıcıları kompozisiyaların ümumi süjetini çox vaxt insanların təfəkkürünü sınağa çəkə biləcək rəmzlərlə zənginləşdirmişlər. Cizgilərlə və rənglərlə ifadə olunan və çox vaxt məna-məzmun daşıyıcısı olan naxış-rəmzlərin milli tətbiqi sənətimizin müxtəlif növlərində, o cümlədən keramikada davamlı olaraq tətbiqi də yəqin ki, həm də onun estetikaya bələnmiş funksionallığın-dan irəli gəlir. Bununla belə, demək lazımdır ki, həm qədimlərdə, həm də indinin özündə belə tətbiqi sənət ustalarının "naxışsız"lığın estetikasının gərəkliliyini və təsirliliyini əldə etmələrinə rast gəlmək mümkündür ki, bu da heç şübhəsiz nə qədər yaradıcıların təxəyyülünə əsaslanırsa, bir o qədər də istifadəçi zövqü ilə bağlıdır (1, s.12).

Keramika üzrə fəaliyyət göstərən bir çox orta yaşlı rəssamları yaradıcılığında milli xüsusiyyətləri və fəlsəfi keyfiyyətləri ilə seçilən əsərlərin olmaması məhz bizə müstəqilik dövründə məlum oldu. Bu yerdə Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin sözləri yerinə düşür: "*Etiraf edək ki, xalqımızın yaşanın çoxminillik qürur doğurucu tarixi qarşılığında uzun müddət yaradıcılarımız, o cümlədən də rəssamlarımız bəzən korşaldığı hiss olunan yaddaşımızı titrədə biləcək möhtəşəm əsərlər yarada bilməyiblər. Bunun sovet dönəmində baş tutmamasını çox vaxt mövcud ideologiya ilə əlaqələndirənlərlə razılaşmaq olmur. Çünki, kommunist rejimin süqutundan sonra heç birinin portfelindən və emalatxanasından "sandıq ədəbiyyatı" kimi dəyərləndiriləcək bir əsər belə çıxmadı*" (6, s.16).

2014-cü ildə Əliyeva Xatunun müəlliflik etdiyi "Müdafiə" adlı keramik əsərdə də hadisəni simvolik xarakterizə edən fərqli forma xüsusiyyəti ilə rastlaşırıq. H=70 sm ölçüsündə olan keramik kompozisiya sanki enli ağac gövdəsini əks etdirir. Onun üzərində - qu yuvasının üzərində onu müdafiə etməyə çalışan quşların stilizə olunmuş forması öz əksini tapmışdır. Sağ və sol hissədə oxşar quruluşda verilmiş formalar açılan qanadların yuvanın üzərində hərəkət edirmiş kimi plastikliyini olduqca həssas formada tamaşaçısına çatdırır. Əsərin ruhunda hökm sürən həyəcan, təşviş formaların yaratdığı dinamik təsirlərlə öz uğurlu həllini tapmışdır. Sərt keçidlər, sivri ucluqlar, asimmetrik formaların tərs qarışıq əlaqələndirməsi əsərin mövzusunu daha aydın qavramağa, rəssamın həssas münasibətini dərk etməyə imkan yaradır. Ağacın gövdəsində verilmiş dərin cızıqların asimmetrik, fərqli ölçülərlə səth üzərində yer alması onu kompozisiyanın yuxarı qisminin ümumi stili ilə uyğunlaşdıraraq harmonik ifadəni meydana gətirmiş, eyni zamanda kompozisiya bütövlüyünün əldə edilməsində əsas vasitələrdən birinə çevrilmişdir.

Müxtəlif bədii vasitələri nəzərdən keçirərkən, onların özünəməxsus xüsusiyyətlərini tədricən başa düşərkən gənc keramik rəssamlar yadda saxlamalıdılar ki, böyük istedadla yaradılmış sənət əsəri o əsərdir ki, onun bütün elementləri həmişə tam üzvi vəhdət təşkil edir. Məsələn, Nərimanzadə Orxanın 2016-ci ildə yaratdığı "Libertatem" adlı keramik nümunənin özünün fərqli forması ilə maraq oyatması danılmazdır. Ümumi hündürlüyü 80 sm. olan yaradıcılıq nümunəsi mat-ağ şamotdan hazırlamışdır. Rəssam kompozisiyada səmaya doğru uzanan sərhədsiz ruh azadlığını ifadə etməyə cəhd etmişdir. O, formanı burada fəlsəfi, poetik məna yaradaraq, qadın fiqurunu ruhumuzun azad olduğu, arzularımıza doğru aparacağına işarə edəcək şəkildə həll etmişdir. Ümumiyyətlə, hər bir sənət insanın yaratdığı iş onun dövrünün aynası olmalıdır. Gənc rəssam bu fikri özünə rəhbər tutaraq bütün dövrlər üçün hər zaman aktual olan qadın azadlığını bəşəri azadlıq kimi önə çəkmişdir. Keramik nümunə mavi və qəhvəyi tonlardan ibarətdir. Bu rənglər işin məzmununa və xarakterinə görə müəyyənləşdirilmişdir.

Müasir keramikaların əsas xüsusiyyətlərindən biri də təsvirlərdə realist əlamətlərlə yanaşı, dekorativliyə geniş yer verilməsidir.

Ümumiyyətlə, bir çox keramik məlumatlar vardır, rənglərin məqsədli istifadəsi onun daha estetik və dəyərli görünməsinə imkan yaradır. Məsələn, Əliyeva Nəzrinin müəlliflik etdiyi "Bakı möcüzələri" (2016) adlı dekorativ pannosunu qeyd olunanlara uğurlu misal olaraq göstərmək mümkündür. Rəssam şirəüstü boyalardan istifadə edərək məqsədinə nail olmağı bacarmışdır. Mərkəzdə Bakını simvollaşdıran Qız qalası və digər memarlıq abidələrinin stilizə olunmuş forması bədii ümumiləşdirmə olaraq əsərin mərkəzində yerləşdirilmişdir. Burada materialın öz rənginə uyğun tünd və açıq rəng dəyərlərindən istifadə edilərək işıq-kölgə münasibətlərinə də diqqət yetirilmişdir. Dördkünc şəkildə əsas hissəni sanki çərçivələyən hissədə isə Bakının qədim memarlıq abidələri ilə yanaşı, onun müasir şəhər simasını əks etdirən yeni tikililərin də sintez edilərək dalğalanan dənizin əhatəsində qarışıq formada bütün əhatə boyu əks olunması uğurlu dekorativ kompozisiyanın meydana çıxmasını şərtləndirmişdir. İçərisəhərin dar küçələri, Şirvanşahlar sarayı, eləcə də sovet memarlıq

nümunələri, eyni zamanda müasir dövrün ən uğurlu memarlıq nümunələri hesab edilən müasir tikililər sıx şəkildə kompozisiyada parlaq, isti və soyuq rəng təzadları ilə təravət alaraq dinamik kompozisiya formasını meydana gətirmişdir.

Rəngdən uyğun istifadəsi ilə meydan gəlmiş növbəti nümunələrdən biri də 2016-cı ildə gənc keramik rəssam Əliyeva Şövkət tərəfindən hazırlanmış iki hissədən ibarət "Bədr" adlı dekorativ vazadır. Peyğəmbərin ən mühüm qəzalarından sayılan "Bədr"i mövzu olaraq seçən rəssam burada mövzuya uyğun fəlsəfi yanaşma, həssas münasibət göstərmişdir. Bir-birinə xaraktercə yaxın olan formaların üzərində xırda nöqtələr, xətti ifadələrlə verilmiş bəzək tipli elementlər onların hər birində müxtəlif şəkildə öz həllini tapmışdır. Enli alt qismin daralaraq yuxarıya doğru enliləşməsi fiqurların hər ikisində eyni qaydada ifadə edilmişdir H=60 və H=5- sm ölçüsündə olan formaların üzərində ağ, göy, mavi kimi rənglərdən istifadə edilmişdir. Üfüqi istiqamətə doğru uzanan xətti formalar isə keramikanı öz rəngində həndəsi formalarla həll edilərək onun estetik dəyəri ilə yanaşı, mövzuya uyğun simvolik əhəmiyyətini də yüksəltmişdir. Məkkədə ənənəvi hal almış şeytana daş atılan yerin stilizə edilmiş şəkildə bədii həllini verən rəssam burada Bədr döyüşündə müsəlmanların məkkəli müdriklərlə ilk döyüşünə işarə edərək onun simvolik tərənnümünü meydana çıxarmışdır.

Gənc keramik rəssamlardan Qasımlı Möhsünün "Dağlar, qalalar, babalar" və "Torpağın nəğməsi", Nəbiyev Əzizağanın "Sufilər", Mərdiyev Şəhriyarın "Hərəkət" adlı əsərləri "soyuq" keramikaya duyğulandırıcılıq və düşündürücülük bəxş etmənin mümkünlüyünü sərgiləyən bənzərsiz sənət nümunələridir.

2014-cü ilə aid Həmidzadə Fidanın yaratdığı dörd hissəli keramik panno isə özünün psixoloji təsiri ilə maraq oyadır. Müxtəlif xarakterlərin bədii ümumiləşdirməsi zamanı rəssam dərin məna kəsb edən xarakterlər aləmini qarışıq olaraq həll edərək onların hər birinin daxili aləmini açan bədii ümumiləşdirmədən psixoloji yanaşmanın verdiyi böyük imkanlarla ustalıqla həyata keçirmişdir.

Hümbətli Fidanın 2016-cı ildə yaratdığı "Dəyişmə" əsərində isə hadisəyə real münasibət xüsusi olaraq diqqəti cəlb edir. İki hissədən olan kompozisiyada birinci hissədə formaların yaratdığı hündür düz hissə, ikincidə öz formasını dəyişərək asimmetrik xətlərin yaratdığı daha geniş miqyası ilə əsərin məzmun açıqlamasını verir.

Belə ki, gənc keramika rəssamlarının ictimailəşdirdiyi əsərlər materialın texnoloji imkanları ilə düşüncələrindən qaynaqlanan formaları sadəcə qovuşdurmaq deyildir. Bu mənada ənənəvi materialın-şamotun onun nəhayətsiz təxəyyülündə şaşırdıcı forma və rəng alması, çox ifadəli siluet daşıyıcısına çevrilməsi heç şübhəsiz gənc sənətkarların davamlı axtarışlarının və eksperimentlərinin nəticəsidir. Başqa sözlə desək, onlar, məhz ifadəli plastik tutuma və orijinal forma-biçimə tamaşaçısını duyğulandıracaq rəng və faktura verməklə əsərlərinin yaddaqalanlığını əldə etmişdirlər.

**Nəticə**

Gənc keramika rəssamlarının ictimailəşdirdiyi əsərlər materialın texnoloji imkanları ilə düşüncələrindən qaynaqlanan formaları sadəcə qovuşdurmaq deyildir. Bu mənada ənənəvi materialın-şamotun onun nəhayətsiz təxəyyülündə şaşırdıcı forma və rəng alması, çox ifadəli siluet daşıyıcısına çevrilməsi heç şübhəsiz, gənc sənətkarların davamlı axtarışlarının və eksperimentlərinin nəticəsidir. Başqa sözlə desək, onlar, məhz ifadəli plastik tutuma və orijinal forma-biçimə tamaşaçısını duyğulandıracaq rəng və faktura verməklə əsərlərinin yaddaqalanlığını əldə etmişdirlər.

**ƏDƏBİYYAT**


1. Aslanova, A. Müasir Azərbaycan keramikası: sənətşünaslıq namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2004.
2. Əfəndi, R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 282 s.
3. Əfəndi, R. Azərbaycan dekorativ-tətbiqi sənətləri (orta əsrlər). Bakı: 1976.
4. Əfəndi, T. Orta əsr Azərbaycan saxsı məmulatlarının təsvir motivləri // "Qobustan" dərgsi, 1984, № 1, s.44-46.
5. Əliyev, Z., Xəlilov, A. Azərbaycan incəsənəti. II-III hissələr. Bakı: 2011, 142 s.

6. Əliyev, Z. Keramikanın fəlsəfi düşündürücü qatı // Kaspi qəzeti, 2015, 31 yanvar-2 fevral, s.16-17

**** Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının***
***Dekorativ-tətbiqi sənət fakültəsinin dekanı***
***E-mail: Imran.kerimov.65@mail.ru***

**Imran Karimov**

## REFLECTION OF THE PHILOSOPHICAL THEME IN THE ACTIVITY OF AZERBAIJANI CERAMIC ARTISTS DURING THE PERIOD OF INDEPENDENCE

Art ceramics, which is considered one of the oldest arts in Azerbaijan, dates back to the Neolithic period. This type of art, which has such an ancient and rich history of development, has not lost its importance even in our modern times. In the early stages of its development the ceramic art, which was aimed at meeting the needs of people, that is, had a purely utilitarian function, gained an aesthetic function in later periods and helped to form the feelings of beauty, decoration, painting and patterns of the early human. In the article the development trends of ceramic art in the period after Azerbaijan gained independence are investigated. But as a research object the activity of Azerbaijani ceramic artists working in that period is taken.

**Keywords:** *ceramics, modern period, philosophical, technology, artistic, plasticity, décor*

**Имран Каримов**

## ОТРАЖЕНИЕ ФИЛОСОФСКОЙ ТЕМЫ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ ХУДОЖНИКОВ-КЕРАМИКОВ ПЕРИОДА НЕЗАВИСИМОСТИ

Художественная керамика, считающаяся одним из древнейших искусств Азербайджана, восходит к периоду неолита. Этот вид искусства, имеющий столь древнюю и богатую историю развития, не утратил своего значения в наше время. На ранних этапах своего развития керамическое искусство, которое было направлено на удовлетворение потребностей людей, то есть имело чисто утилитарную функцию, в более поздние периоды приобрело эстетическую функцию и способствовало формированию чувств красоты, декоративности, живописи первобытных людей. В статье рассматриваются тенденции развития керамического искусства в период после обретения Азербайджаном независимости. В качестве объекта исследования было взято творчество азербайджанских художников-керамистов, работавших в тот период.

**Ключевые слова:** *Керамика, современный период, философская, технология, художественная, пластика, декор.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 12.02.2024**
**Son daxilolma tarixi:14.03.2024**